# Mina "tarlaları" terrorçuların mənfur xislətinin göstəricisidir

**3 il öncə 30 illik yurd nisgilimizə son qoyuldu. İllərdir yurdlarına həsrət qalmış soydaşlarımızın yenidən bu torpaqlarda gözəl həyat qurmaları üçün hazırda sürətlə bərpa-quruculuq işləri aparılır. Bu istiqamətdə genişmiqyaslı layihələr, baş planlar hazırlanıb və icrasının tez bir zamanda reallaşdırılması üçün əhəmiyyətli tədbirlər görülür. Bu zaman isə bir daha düşmənin xəbis xislətinin şahidi oluruq.**

Öz torpağı olmadığını və bu yerlərin əsl sahibinin geri dönəcəyini yaxşı bilən düşmən işğal altında qalan torpaqlarımızı xarabazara çevirib, daşı daş üstündə qoymadıqları azmış kimi, ərazilərimizi mina tarlalarına çevirib. Ölkəmiz hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. Statistikaya əsasən, 2020-ci ilin noyabrından bu günədək 98 min hektardan çox ərazi mina və silah-sursatlardan təmizlənib, 93 min 410 mina və partlamamış hərbi sursat tapılaraq zərərsizləşdirilib. İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən təkcə sentyabrda 4 min 550,1 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Onların əksəriyyəti Ermənistan istehsalı olan plastik örtüklü minalardır. Bu minalarda metal maddələr az olduğu üçün aşkarlanması daha çətin hesab olunur.

Ermənilər tərəfindən törədilən mina terrorunun qurbanına çevrilənlərin də sayı az deyil. Son 30 ildə Azərbaycanda mina qurbanlarının sayı 3 min 406 nəfər olub. 2020-ci il noyabrın 10-dan bu günədək Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində baş vermiş mina hadisələri nəticəsində 327 nəfər minadan zərər çəkib. 48-i mülki, 15-i hərbçi olmaqla 63 nəfər həlak olub.

Onu da qeyd edək ki, ermənilər Laçın rayonu ərazisini tərk edəndən sonra təkcə bu ərazidə 2021-ci ildə Ermənistanda istehsal edilən E-001M markalı 1400-dən artıq piyada əleyhinə mina aşkarlanıb. Habelə Zabux və Sus kəndlərində evlərin giriş qapılarında və həyətyanı sahələrdə yeni quraşdırılmış mina tələləri zərərsizləşdirilib.

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Qarabağ bölgəsinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə mütəmadi tədbirlər davam etdirilir. Ötən ay Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında icra olunan əməliyyatlar nəticəsində ümumilikdə 242 piyada əleyhinə, 447 tank əleyhinə mina, 909 partlamamış hərbi sursat aşkarlanıb. Təkcə sentyabrın 21-dən oktyabrın 2-dək bölgədə 18 ədəd piyada, 105 ədəd tank əleyhinə mina aşkar edilərək təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra qondarma rejimin bu ərazilərdə əlavə minalar basdırdığı üzə çıxıb. 480 kilometrdən artıq təmas xətti boyunca yerləşdirilən yarım milyondan artıq mina heç də təsadüfi partlayıcı və ya partlamamış hərbi sursatlar deyil.

Müvafiq qurumlar Xankəndi şəhəri ərazisində yerləşən müəyyən inzibati binalarda xeyli sayda partlayıcı qurğular aşkarlayıblar. İnzibati binalara baxış keçirilən zaman onlara erməni terrorçuları tərəfindən mina quraşdırıldığı üzə çıxıb.

Tərk etdikləri əraziləri minalamaq, vətəndaşlarımızın həlak olmasına cəhd etmək və azad olunmuş yerlərə sahiblərinin qayıtmasını hər vəchlə gecikdirmək kimi düşmənin murdar xislətini təsdiqləyən minlərlə fakt var.

Uzun illər Ermənistanın işğalçılıq, etnik təmizləmə siyasətinə məruz qalan Azərbaycan bu gün mina terrorunun ağır fəsadlarını sürətlə aradan qaldırır. Əlbəttə, bu, çox böyük səylər tələb edir. Mövcud çətinliklərə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, eyni zamanda regionda sülhün, əmin-amanlığın bərqərar olması üçün Ermənistanla münasibətlərin normallaşmasına hesablanmış məqsədyönlü addımlar atılır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



Azərbaycan. - 2023.- 6 oktyabr.- S.7.